Pənahova Vəfa Vaqif qızı[16]

# QƏDİM İNGİLİS DİLİNİN SÖZYARADICILIĞINA TARİXİ BIR NƏZƏR VƏ SÖZDÜZƏLTMƏDƏ PREFİKSLƏRİN ROLU

Məlum olduğuna gürə dğnya dilləri iki cğr təsnif olunur:

1. Mənşəyinə gürə (geneoloji təsnifat);
2. Qrammatik quruluşuna gürə (tipoloji təsnifat).

Geneoloji təsnifata əsasən dünya dilləri dil ailələrinə bölünür. Onların içərisində Hind-Avropa dil ailəsi öz böyüklərinə görə xüsusi yer tutur.

Hind-Avropa dil ailəsinə on iki dil qrupu daxildir. Bu dil qruplarından birini German, yaxud Tevton dil qrupu təşkil edir.

German qrupunun tarixi əsasən Proto-German dilinin yaranması ilə başlayır. Proto-German dili dilçilikdə German dillər qrupunun kökü hesab olunur. Bu dilin yaranması eramızdan əvvəl XV-X əsrlərə təsadüf edir.

Dilin tarixi inkişafı daim davam edən bir prosesdir və tarix boyu dil bir sıra dövrləri əhatə etmişdir.

İngilis dilinin tarixində ən çox qəbul edilən aşağıdakı dövrləri göstərmək olar:

1. Qədim İngilis dili dövrü (O.E.) V-XV əsrlər.
2. Orta İngilis dili dövrü (Mid.Eng) XI-XV əsrlər.
3. Müasir İngilis dili dövrü (Mod.Eng) XX əsrdən indiyə kimi:

a) Erkən Yeni İngilis dili dövrü (Early N.E.) XV-XVII əsrlər.
b) Yeni İngilis dili dövrü (New Eng) XVI-XIX əsrlər.

Qədim ingilis dili dövrü Britaniyada Germanların V əsrdə məskunlaşması və ya VII əsrdə yazının aranması ilə başlayır və İngiltərinin 1066-cı ildə normanlar tərəfindən zəbt edilməsi ilə sona yetir.

Orta ingilis dili dövrü Norman istilası ilə başlayır və 1475-ci ildə nəşrin yaranması ilə sona çatır və bu da Erkən ingilis dilinin, daha sonra isə Yeni ingilis dili dövrünün başlanğıcı olur.

Qədim ingilis dili sözləri müasir sözlər kimi morfoloji quruluşu etibarı ilə üç əsas növə ayrılır.

a) sadə sözlər («kök» sözlər) və ya kök morfemdən ibarət olan sadə əsaslı sözlər, məsələn:

| O.E. | New Eng. |
|---|---|
| land | land |
| sinzan | sing |
| zo d | good |

b) bir kök-morfem və bir və ya daha çox affiksdən ibarət olan düzəltmə sözlər, məsələn:

| O.E. | New Eng. |
|---|---|
| be-zinnan | begin |
| weorp-unz | worthiness |
| un-scyld-iz | innocent |
| ze-met-inz | meeting |

c) birdən çox kök-morfemdən ibarət əsası olan mürəkkəb sözlər, məsələn:

| Old.Eng | New.Eng. |
|---|---|
| mann-synn | mankind |
| norpe-weard | northward |
| fe aver-t u ne | fourteen |
| weall-zeat | wall gate |
| scit-ze-refa | sheriff |

Erkən Proto-German və ya Ümumi German dialektlərində sözlərin morfoloji strukturu mürəkkəb olub üç mühüm ünsürdən ibarət olmuşdur:

1) kök
2) əsasdüzəldici şəkilçi
3) qrammatik sonluq.

Daha sonra Qədim German dillərində əsas düzəldici şəkilçilər sözdüzəltmə funksiyasını tədricən itirdilər və üç morfoloji struktur ikili morfoloji struktur ilə əvəz olundu. Qrammatik sonluq əsas düzəldici şəkilçi ilə birləşərək yeni sonluq əmələ gətirdi:

Proto-German

| Kök | əsas düzəldici şəkilçi | qrammatik sonluq |
|---|---|---|

Qədim German dili

[16] Azərbaycan Dillər Universitetinin dosenti

nin göstərdiyinə görə, qədim ingilis dilində alınma yox, Latın və Yunan dillərindən kalka edilmişlərdən danışmaq olar.

Qədim ingilis dili prefikslərdən mis-, un-, be- prefiksləri digər dövrlərdə də məhsuldar olaraq qalmış, həm doğma sözlərdən, həm də alınmalardan yeni leksik vahidlər düzəltmişlər.

Qədim ingilis prefikslərinin fərdi mənaları da rəngarəng olmuşdur. Onlar qüvvətləndirici, inkar, məkan, intensivləşdirici, hədsizlik, yığcamlıq, əkslik və s. mənalar ifadə etmişlər.

Qədim ingilis dili dövründən ta müasir dövrə qədər gəlib çatan aşağıdakı prefiksləri misal gətirmək olar: mis-, un-, out-, over-, be-, fore-, under-.

Həmin dövrdə be- prefiksinin köməyi ilə orta ingilis dili dövründə aşağıdakı sözlər yarandı, məsələn:

| Mid E. | N.E. |
|---|---|
| Beseechen | beseech |
| Bewitchen | bewitch. |

Bunlardan əlavə Mid E: betaken, becharmen; N.E. befriend, belittle, becirle, belace kimi sözlər yaranmışdır.

Qədim ingilis dili dövründə sözdüzəltmənin üçüncü vasitəsi mürəkkəb vasitə — sözbirləşməsi idi.

Sözbirləşməsi qədim ingilis dilinin lüğət tərkibinin inkişafında ən məhsuldar vasitə hesab olunurdu. Sözdüzəltmənin bu növündən bütün Hind-Avropa dillərində istifadə edilirdi. Lakin həmin qrupların heç birində söz birləşməsi German dillər qrupunda olduğu kimi yayılmamışdır.

T.A.Rastorguyevanın qeyd etdiyinə görə mürəkkəb söz yaranması prosesi qədim ingilis dilində iki yolla əmələ gəlmişdir: 1) morfoloji, 2) semantik.

Orta və yeni ingilis dilində yeni leksik vahidlərin yaranmasında artıq ablaut öz əhəmiyyətini itirmişdir. Bu dövrdə və hal-hazırda yeni leksik vahidlərin yaranmasında üç vasitə mühüm rol oynayır:

1. affikslər (suffiks və prefikslərlə) vasitəsi ilə yaranan leksik vahidlər;
2. konversiya yolu ilə yaranmış leksik vahidlər;
3. sözlərin birləşməsi vasitəsi ilə yaranmış mürəkkəb leksik vahidlər.

Qədim ingilis dili ilə müqayisədə bu sistemlər daxilində müəyyən kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermişdir. Məsələn, qədim ingilis dilinin bir sıra affiksləri, xüsusilə prefiksləri ya tamamilə dildən yox olmuş, ya da öz məhsuldarlıqlarını itirmişdilər. Odur ki, qədim ingilis dili dövrünün sonlarında bu cür prefiksə malik fellər onları itirdiklərinə görə düzəltmə sözlər sadə sözlərə çevrildilər.

Məsələn:

| O.E. | Mid.Eng. | N.E. |
|---|---|---|
| Fylian-a-fyllan | fillen | fill |
| Brecan-to-brecan | breken | break |
| Lician-ze-lician | liken | like |

Lakin orta və yeni ingilis dilində affikslər sistemi yeni suffiks və prefikslərlə zənginləşdi.

Bundan əlavə, orta ingilis dili dövrünün sonlarına yaxın (XIII-XIV) yeni sözyaradıcılığı vasitəsi yarandı, məsələn:

N.E. house (isim) və house (fel)
carpet (isim) carpet (fel)

Konversiya metodunun inkişafı orta ingilis dili dövründə qrammatik və leksik dəyişikliyə əsaslanır: sonluq və affikslərin azaldılması sözün morfoloji strukturunun sadələşdirilməsi.

Bəzi sonluqların və affikslərin dildən yox olması nəticəsində bir çox fel və isimlər ingilis dilində eyni forma kəsb etdilər, məsələn:

| O.E. | MigEng. | N.E. |
|---|---|---|
| Lufu $_n$-lufian $_v$ | love $_n$-love $_v$ | love $_n$-love $_v$ |
| chaunge $_n$ (фр.сюзц) | change$_n$- change $_v$ | -cишgaunge $_v$ |

Beləliklə, orta ingilis dili dövründə affikslərin qismən yox olması və onların yenidən qurulması prosesi baş verdi.

Qədim ingilis dilinin mis-, un-,. be-prefiksləri orta və yeni ingilis dili dövrlərində də məhsuldar olaraq qalmış və həm doğma sözlərdən, həm də alınmalardan yeni leksik vahidlər düzəltmişlər, məsələn:

Unable-XIV əsr; misbelief — XIII — əsr; unlike — XIII əsr; behead, befriend, befool — XIII əsr və s.

Lakin bu qədim ingilis dilinin prefiks sisteminin sözdüzəltmə üsulu kimi tamamilə aradan çıxması deyildi.

XIV və XVII əsrlərdə ingilis dilinə çoxlu yeni prefikslər daxil oldu. Onlar ya mürəkkəb sözün birinci komponentindən yaranırdı, yaxud da Latın, Fransız, Yunan dillərindən alınırdı.

Beləliklə belə bir nəticəyə gəlirik ki, prefikslər ta qədim ingilis dili düvrğndən dilin süzyaradıcılığının ayrılmaz hissəsi olmuş və dilin tarixi düvrğ dəyişsə də üz rolunu itirməmişdir.

## ƏDƏBİYYAT


1. Амосова Н.Н. Этимологические основы словарного состава английского языка. М, 1956.
2. Арнолд И.В. Лексикология современного английского языка. М.1959.
3. Бруннер К. История английского языка, I, II том. М, 1956.
4. Jesperson Otto. A Modern English Grammar on Historical Principles. Copenhagen. 1942.
5. Hüseynzadə M.Müasir Azərbaycan dili. B, 1973.
6. Ilysh. History of English Language. Л.1971
7. Карашук П.М.Словообразование английского языка. М, 1977.
8. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. B, 1967.
9. Галперин И.Р., Черкасова Е.Б. Лексикология английского языка. М, 1956.







10. Мешков О.Д. Словообразование современного английского языка. М, 1976.
11. Marchand M. The Categories and Types of present Day English, Word-Formation, Wiesbaden, 1960.
12. Пиоттух К.В. Системы префиксации в современном английском языке, автореферат, М., 1971.
13. Rastorguyeva T.A. History of English. M.,1983.
14. Rastorguyeva T.A. History of English. V, 1969.
15. Rauldolf Ouirk, Sidney Greenbaum, Geoffrey Seech, Jan Svartvik. A Comprehensive Grammar of the English Language, London, 1997.
16. Смирницкий А.И. История английского языка. М, 1965.
17. Смирницкий А.И. Лексикология английского языка. М, 1956.
18. «Сравнительная грамматика германских языков, p.I, «Морфология», М., 1963.
19. Шанский Н.М. Очерки по русскому словарю. М, 1968.
20. Виноградов В.В. Словообразование в его отнощение к грамматике и лексикологии. М, 1952.


**çar sözlər:** Sözyaradıcılığı, sözdüzəltmə, affiksasiya, dil tarixi, prefiks, suffiks.
**лючевые слова:** Словообразование, языкознание, аффиксация, префиксы, суффиксы
**ey words:** Word formation, affixation, prefix, suffix, word derivation.

## РЕЗЮМЕ

В данной статье рассматриваются история образования и лексико-семантические свойства префиксов, спользуемых в английском языке. В статье также анализируются изменения значений слов путем добавления данных префиксов к простым словам и производится сравнение полученных новых слов со словами арого и современного английского языка.

## SUMMARY

This article is devoted to the history of word formation and lexico-semantic meanings of prefixes, used in the nglish language. In the article the words meaning change is analysed by adding these prefixes to the simple words d also comparison of new derived words with old and modern English language is carried out.

**ƏYÇİ: dos.L.Ələkbərova**